# Aqrar sahədəki fəaliyyətin elmi-texnoloji əsasları möhkəmləndirilir

***İndi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. Amma bir daha qeyd etmək istəyirəm, daxili tələbat 100 faiz təmin edilməlidir, ixrac maksimum olmalıdır. İxrac bazarları da müəyyən edilməlidir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

❒ ***Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən, daha doğrusu, ulu öndər Heydər Əliyev ölkədə siyasi hakimiyyətə qayıtdıqdan sonra kənd təsərrüfatı torpaqları əkib-becərilmək üçün əhalinin istifadəsinə verildi. Aqrar sektorun bütün sahələri özəlləşdirildi. Şəxsi təsərrüfatların yaradılmasının hüquqi əsasları formalaşdırıldı. İqtisadiyyatın dinamik inkişafı üçün yeni elmi konsepsiyaların, proqramların yaradılmasına və onların özəl təsərrüfatlara tətbiq olunmasına zəruri ehtiyac meydana gəldi.***

Lakin, respublikamız çox mürəkkəb bir geosiyasi məkanda yerləşdiyinə görə, müstəqilliyimizə və inkişafımıza mane olmağa çalışan xarici düşmən qüvvələr, eyni zamanda, milli – azadlıq hərəkatı dalğasında hakimiyyətə gəlmiş, idarəçilik təcrübəsi olmayan “rəhbərlər” ölkə daxilində xaos yaratdılar. Bütün istehsal sahələrində acınacaqlı tənəzzül meydana gəldi. Bəzi siyasi qüvvələr və böyük dövlətlər Azərbaycanın müstəqilliyini yox etmək üçün xalqımıza qarşı erməni separatizmini də gücləndirdilər. Nəticədə sənaye müəssisələri dağıdıldı və kənd təsərrüfatının ötən əsrin 70-ci illərində yaradılmış elmi-texniki bazası məhv edildi. Əkin sahələrinin böyük bir hissəsi istifadəsiz qaldı. Bu acınacaqlı vəziyyət uzun müddət davam edə bilməzdi və çıxış yolunu yenə də xalq tapdı.

Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyun ayının 15-də ölkədə siyasi hakimiyyətə qayıtması vəziyyəti tədricən inkişafa doğru istiqamətləndirdi. Onun düzgün qərarları nəticəsində bir sıra iri dövlətləri təmsil edən şirkətlərlə neft müqaviləsinin bağlanması ölkəmizə xarici dövlətlərin sərmayə qoyması-na əsas yaratdı və tənəzzüldən çıxmağa imkan verdi. 1996-cı ildən başlayaraq, bütün sahələr üzrə davamlı inkişaf başlandı. Bu inkişaf neft sənayesində olduğu kimi, kənd təsərrüfatı sahəsində də özünü göstərdi.

Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi inkişaf konsepsiyası 2003-cü ilin payızından ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən daha çevik şəkildə həyata keçirilməyə başlanıldı. Regionların həm sosial, həm də iqtisadi inkişaf proqramları hazırlandı. Digər sahələrlə yanaşı, ərzaq məhsulları istehsalının elmi-texnoloji təminatına da diqqət artırıldı. Prezident qəti şəkildə bildirdi ki, ölkə iqtisadiyyatının gələcək inkişafı bilavasitə sahibkarlığın gücləndirilməsindən asılıdır. Dövlət başçısının rəhbərliyi ilə 2009–2013-cü illər üçün regionların sosial iqtisadi inkişaf proqramı hazırlandı və bu strategiya əsasında ölkəmizin hər yerində sürətli inkişaf prosesi başlandı. Daha sonra təsdiq edilmiş və həyata keçirilən digər dövlət proqramları sübut etdi ki, iqtisadi inkişafın prioriteti məhz sahibkarlığın inkişaf etdirilməsidir.

Heyvandarlıq, əkinçilik, üzümçülük, tütünçülük, baramaçılıq, arıçılıq və kənd təsərrüfatına daxil olan digər sahələrin daha da inkişaf etdirilməsi üçün iş adamlarına aşağı faizli kreditlər verildi. Bunun da nəticəsidir ki, ölkəmizin ragionlarında müxtəlif sənaye müəssisələri yaradılır. Bu sahibkarlıq strukturlarında ən müasir texnologiyalar tətbiq olunur və iqtisadiyyatın modernləşdirilməsi aparılır. Eyni zamanda, ölkəmizi inkişaf etmiş dövlətlər səviyyəsinə yüksəltmək üçün 2013–2023-cü illəri əhatə edən özəl bölmənin, xüsusilə sahibkarlığın daha da inkişaf etdirilməsinə aid yeni strategiya hazırlandı. Bu strategiyaya uyğun olaraq sahibkarlara xeyli güzəştlər edilir.

İndi həmin stategiyanın tələblərinə uyğun olaraq yeyinti məhsullarının əksəriyyətinin öz ölkəmizdə istehsal olunmasına, xaricdən idxalın azaldılmasına və Azərbaycanın öz məhsulunu ixrac edən dövlətə çevrilməsinə diqqət yetirilir.



Prezident İlham Əliyev Bakı Biznes Mərkəzində bir qrup iş adamı ilə görüşündə demişdir: “Nə üçün biz gündəlik yeyinti məhsullarını özümüzdə olduğu halda xaricdən alırıq”. Bu görüşdə o, öz məhsullarımızı dünya standartları səviyyəsinə qaldırmağı və onları böyük həcmdə xarici ölkələrə də idxal etməyimizi tövsiyə etmişdi.

Xaricdə iqtisadçı ixtisası üzrə təhsil almış bir gənc kimi düşünürəm ki, dövlət başçısının bu uzaqgörən siyasətini daha peşəkarlıqla həyata keçirmək üçün bütün özəl sektorlarda çalışan iş adamlarının muasir dövrün tələblərinə uyğun olaraq elmi-texniki bilik səviyyəsi planlı şəkildə daha da artırılmalıdır. Buna görə də gələcək sahibkarlar hələ məktəb yaşlarında olarkən muasir dövrün tələblərinə uyğun olaraq müxtəlif sahələr üzrə istehsalda tətbiq olunan texnologiyalardan istifadə etmək bacarıqlarına yiyələndirilməlidir. Onların istedad və bacarıqları praktiki olaraq peşə yönümünə istiqamətləndirilməlidir. Müasir heyvandarlıq komplekslərində, eləcə də, başqa kənd təsərüffatı sahələrində və digər özəl strukturlarda yeni texnologiyalardan istifadə olunur. Buna görə də orta məktəblərdə tədris olunan “Əmək təlimi” dərslərində şagirdlərə gələcək həyat fəaliyyətlərində istifadə olunacaq texniki vasitələr əsasında biliklər öyrədilməlidir. Texniki peşə məktəbləri isə müasir istehsalın tələbləri səviyyəsinə uyğunlaşdırılmalıdır. Onların dövrün tələblərinə cavab verən əmək texnologiyaları ilə təchiz olunmasına, yeni peşələr üzrə mütəxəssislər hazırlamasına xüsusi diqqət yetirilməlidir.

Yeri gəlmişkən, yeni təhsil sistemində peşə təhsilinin inkişaf etdirilməsi prioritet istiqamət kimi müəyyən olunub. Bunu Prezident İlham Əliyevin bu ilin aprelində Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması ilə bağlı imzaladığı fərman da təsdiqləyir. Peşə təhsilinin inkişafı istiqamətində atılan addımlar isə ölkədə bu sahənin potensialının tam üzə çıxarılmasına imkan verəcək. Çünki ölkə iqtisadiyyatının inkişafı, yeni iş yerlərinin açılması peşə təhsili sahəsində hazırlanan kadrlara ehtiyacı getdikcə artırır.

Fikrimcə, son illərdə Azərbaycan bir çox parametrlər üzrə Avropa ölkələrinin əksəriyyətindən önə keçib. Buna baxmayaraq, xaricdə şahidi olduğumuz bəzi məqamları qeyd etmək istəyirəm. Məsələn, sahibkarların öz fəaliyyətlərində elmin nailiyyətlərinə əsaslanmasına kömək məqsədilə xüsusi laboratoriyalar və texniki təchizat mərkəzləri yaradılsa, daha böyük uğurlar əldə edə bilərik. Yaxud, hər bir sahə üzrə fəaliyyət göstərən fermerin elə yaşadığı ərazidə müəyyən təlimatlar almaq imkanı da alqışlanmalıdır. Belə ki, vətəndaş hansı torpaqlarda əkdiyi məhsulun daha yaxşı inkişaf edəcəyini bu laboratoriyaların xidmətindən istifadə etməklə aydınlaşdırmalıdır.

Əminik ki, gündən-günə inkişaf edən ölkəmizdə qeyd olunan təkliflər sahibkarlara yardım edən ayrı-ayrı strukturlar tərəfindən qiymətləndiriləcək və tətbiq olunacaq. Bu yığcam fikrimizi Xalq şairimiz Səməd Vurğunun sözləri ilə yekunlaşdırmaq tam yerinə düşərdi: “ Çörək bol olarsa, basılmaz Vətən”.

***Sabir ŞÜKÜROV,***
***Böyük Britaniyanın Hult Universitetinin magistr məzunu***